Organization for Security and Co-operation in Europe office in Baku

"Foreign and Commonwealth Office"

USAID AMERİKA XALQINDAN

ŞƏFFAFLIQ AZƏRBAYCAN

# "ŞƏFFAFLIQ AZƏRBAYCAN" KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İCTİMAİ BİRLİYİ

## OKTYABR-DEKABR 2007-CI IL ƏRZINDƏ GÖRÜLƏN IŞLƏR BARƏDƏ

# MƏTBUAT ÜÇÜN HESABAT

1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT
2. MƏRKƏZLƏRIN FƏALIYYƏTI HAQQINDA MƏLUMAT
3. DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR ILƏ ƏMƏKDAŞLIQ
4. MÜRACIƏTLƏRIN ÜMUMI STATISTIKASI
5. UĞURLA HƏLL EDILMIŞ BƏZI MÜRACIƏTLƏR

## 1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

1993-cü ildə təsis olunan Transparency İnternational (Beynəlxalq Şəffaflıq) təşkilatı beynəlxalq qeyri-hökümət təşkilatıdır və dünyada aparıcı anti-korrupsiya hərəkatıdır. Beynəlxalq Şəffaflıq təşkilatının katibliyi Berlin şəhərində təsis olunub və milli bölmələrin köməyi ilə 90-dan çox ölkədə anti-korrupsiya fəaliyyətlərini əlaqələndirir. Bölmələr müstəqil yerli QHT-rı olaraq öz siyasətlərini azad seçirlər və fəaliyyətlərini davam etdirmək üçün fondlarını artırlar. "Şəffaflıq Azərbaycan" İctimai Birliyi 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyəti və elmi nümayəndələr tərəfindən təsis olunmuşdur. 2001-ci ildə "Şəffaflıq Azərbaycan" təşkilatına milli bölmə statusu verilmişdir.

2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency İnternational" Təşkilatının Azərbaycan bölməsi MDB ölkələri arasında ilk olaraq yeni "ALAC" (İctimai Maraqların Müdafiəsi və Hüquq Məsləhət Mərkəzi) layihəsini həyata keçirir. Layihə ilk əvvəl Bakı və Gəncə olmaqla 2 mərkəz vasitəsi ilə fəaliyyət göstərirdisə, bu gün artıq 5 mərkəz (Quba, Lənkəran, Şəki) vətəndaşların qulluğundadır. Bakı ofisi 2005-ci il iyul ayının 1-dən, 1 Avqust 2005-ci il tarixdən Gəncə mərkəzi, Lənkəran mərkəzi 1 İyul 2006-cı il tarixdən və Quba mərkəzi 1 Avqust 2006-cı il tarixdən, Şəki mərkəzi isə 1 Fevral 2007 ci il tarixdən tam fəaliyyət göstərir.

Hər bir şəxs aşağıdakı telefonlar vasitəsilə mərkəzlərə müraciət edə və pulsuz hüquqi yardım ala bilər.

- **Qaynar xətt Bakı 088 707 07 07 və yaxud (12) 497 68 15**
- **Qaynar xətt Gəncə 088 202 02 02 və yaxud (22) 59 05 92**
- **Qaynar xətt Lənkəran 088 303 03 03 və yaxud (171) 5 17 25**
- **Qaynar xətt Quba 088 404 04 04 və yaxud (169) 5 14 37 ya 5 14 91**
- **Qaynar Xətt Şəki 088 505 05 05 və yaxud (177) 4 26 55 ya 4 48 90**

Layihə, Boyuk Britaniya Xarici İşlər Nazirliyinin "Global Opportunities Fund" (Qlobal İmkanlar Fondu) proqramı və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) (Bakı, Gəncə və Lənkəran mərkəzləri), eləcə də ATƏT-in Bakı ofisinin (Quba və Şəki mərkəzləri, qismən də Bakı və Gəncə mərkəzləri) qrant dəstəyi əsasında həyata keçirilir.

ALAC layihəsi bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa İttifaqına üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

ALAC layihəsinin məqsədi vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir.

ALAC layihəsinin missiyası vətəndaşlara korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi prosedurlarına əsaslanır. Lakin layihə, vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

**Layihə beş istiqamətdə həyata keçirilir:**

- **Hüquqi məsləhət**
- **Maariflənmə və məlumatlandırma**
- **İctimai maraqların müdafiəsi**
- **Dövlət orqanlarının institutsional inkişafına yardım**
- **Mobil treninq və seminar**

## Hüquqi məsləhət

Hüquqi məsləhət vətəndaşlara öz hüquqlarının bərpası və qorunması üçün effektli hüquqi mexanizmlərin istifadə edilməsi və dövlət orqanlarına müraciətlərin hazırlanmasına dair məsləhətlərin verilməsi istiqamətində keçirilən fəaliyyətdir.

## Maariflənmə və məlumatlandırma

Bu fəaliyyət növü vətəndaşların və ictimaiyyətin anti-korrupsiya sahəsində maariflənmməsini nəzərdə tutur.

**İctimai maraqların müdafiəsi**

Bu fəaliyyət verilən hüquqi məsləhətlərin və maariflənmənin əsasında dövlətin müvafiq siyasətini, institusional təcrübəsini, qanunvericiliyin və pozuntulara görə məsuliyyəti təkmilləşdirmək məqsədilə həyata keçirilir.

**Dövlət orqanlarının institusional inkişafına yardım**

Bu fəaliyyət nəticəsində bir neçə dövlət orqanlarının qaynar xəttlərinin, korrupsiyaya mübarizə üzrə ixtisaslaşmış işçi qruplarının və s. yaradılmasına və fəaliyyət göstərmələrinə köməklik göstərilməsi nəzərdə tutulur.

**Mobil treninq və seminarlar**

Bu fəaliyyət ərzində mərkəz hüquqşünasları könüllülərin köməyi ilə müxtəlif hədəf qrupları (əsasən kənd əhalisi ilə) üçün görüş keçirir, mobil anti-korrupsiya təlimlərini keçirir və yerlərdə pulsuz hüquqi yardım göstərirlər.

***"Şəffaflıq Azərbaycan" təşkilatı (www.transparency-az.org) və adı çəkilən Layihə (www.alac-az.org) haqqında əlavə məlumat almaq üçün göstərilən internet ünvanlarına müraciət edə bilərsiniz.***

## 2. MƏRKƏZLƏRIN FƏALIYYƏTI HAQQINDA MƏLUMAT

- ***Seminar və Tədbirlər***

**Layihənin işçi heyəti hesabat dövrü ərzində müxtəlif təşkilatlar tərəfindən təşkil olunan və həmçinin özlərinin təşkil etdiyi 35 seminar, dəyirmi masa və konfranslarda iştirak etmiş və həmçinin yerləşdikləri ərazi üzrə yaşayan əhaliyə korrupsiya ilə bağlı mübarizə üzrə maarifləndirmə məqsədi ilə 62 seminar təşkil ediblər.**

Aşağıda ayrı-ayrı mərkəzlərdə keçirilən tədbirlər haqqında qısa məlumat verilib:[1]
Layihənin Bakı ofisi cari ilin Dekabrın 18-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 525 nəfərlik zabit heyəti üçün seminar təşkil etmişdir. Seminarda "Şəffaflığın artırılması və

[1] ***Hesabatda yalnız hər mərkəz üzrə bir tədbir işıqlandırılıb. Mərkəzlər nəznində keçirilən digər tədbirlər haqqında əlavə məlumat almaq üçün Layihənin Baş Koordinatoru Ceyhun Atayev ilə 418-11-09 nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.***

Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Strategiya"da nəzərdə tutulan tədbirlər planı, "Transparency İnternational" təşkilatı haqqında məlumat, onun Azərbaycan bölməsinin fəaliyyəti, ALAC layihəsi, onun xidmət və uğurları barədə iştirakçılara məlumat verilmişdir. Seminarda həmçinin korrupsiyaya qarşı mübarizə vasitələri ilə bağlı müzakirə keçirilmişdir.



*Müdafiə Nazirliyinin zabit heyəti üçün Bakıda keçirilən seminar*

Layihənin Gəncə ofisi cari ilin Noyabrın 25-də Samux rayonunun Ziyadlı kəndində 52 nəfər yerli sakin üçün seminar keçirmişdir. Sakinləri Layihənin xidmətləri ilə bağlı tanış edən layihə əməkdaşı onlara yerində hüquqi yardım göstərmişdir. Sakinlər daha çox kommunal xidmətlər və polisin işi ilə bağlı öz narazılıqlarını bildirirdilər.





*Ziyadlı kənd sakinləri ilə görüş*

Layihənin Lənkəran ofisi cari ilin Oktyabrın 14-də Lənkəran şəhərinin Xolmoli kəndində 38 nəfər kənd sakini ilə görüş keçirmişdir. Görüş zamanı iştirakçılar daha çox torpaqların qeyri-qanuni satışı, sosial yardımın verilməməsi, məktəblərdə olan rüşvət halları ilə bağlı şikayətlər ilə çıxış edirdilər. Layihənin hüquqşünası şikayətçilərə hüquqi məsləhət göstərərək onlara şikayət prosedurunu başa salmışdır. Yazılı şikayətlər öz növbəsində aidiyyatı orqanlara göndərilmişdir.



*Lənkəranın Xolmoli kəndində keçirilən təlim*

Layihənin Quba ofisi cari ilin Oktyabrın 8-də Quba rayonunun Buduq kəndində 31 nəfər kənd sakini üçün seminar keçirilmişdir. İcma nümayəndələri daha çox kommunal xidmətlərin aşağı keyfiyyəti, sosial yardım və pasport qeydiyyatı ilə bağlı şikayətlər ünvanlayırdılar.





*Qubanın Buduq kəndində keçirilən seminar*

Layihənin Şəki ofisi cari ilin Oktyabrın 14-də Şəki şəhərinin Bideyiz kəndində yerli bələdiyyənin dəstəyi ilə 38 nəfər kənd sakini görüş keçirmişdir. Sakinlər daha çox kommunal xidmətlər və ünvanlı sosial yardımın verilməməsi ilə bağlı şikayətlənirdilər. Şikayətçilərə yerində hüquqi yardım göstərilmiş və onların müraciətləri aidiyyatı orqanlara göndərilmişdir.



*Şəkinin Bideyiz kəndinin sakinləri üçün seminar*

## 3. DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR ILƏ ƏMƏKDAŞLIQ

“Şəffaflığın artırılması və Korrupsiyaya qarşı Mübarizə” üzrə Milli Strategiyanın 27 iyul 2007-ci ildə təsdiqlənməsindən sonra “Şəffaflıq Azərbaycan” təşkilatı müxtəlif dövlər orqanları üçün Strategiyada nəzərdə tutulan Fəaliyyət Planına əsasən, müxtəlif dövlət oqranlarında anti-korrupsiya maarifləndirmə təlimləri keçirmişdir. Layihənin Bakı ofisinin nümayəndələri Oktyabr-Dekabr 2007-ci il ərzində Azərbaycan Respublikası Baş Prokurorluğunda, Bakı şəhər tabeçiliyində olan polis idarələrində, Bakı Pedaqoji Kadrların İxtisasartırma İnstitutunda, Müdafiə Nazirliyində, habelə Daşınmaz Əmlakın İdarə Olunması üzrə Dövlət Komitəsində bu cür seminarlar keçirmişdir.




*Bakı Pedaqoji Kadrların İxtisasartırma İnstitutunda keçirilən təlimlər*




*Polis idarələrində keçirilən təlimlər*

Layihə, yerli QHT-lər ilə sıx qarşılıqlı əməkdaşlıq edirlər. Bir çox hallarda təşkilat yerli QHT-lərə müraciət edərək birgə tədbirlərin keçirilməsi təklifi ilə çıxış edir. Bəzi hallarda isə müxtəlif QHT-lər təşkilatın yerli ofislərindən müəyyən tədbirlərin keçirilməsi üçün istifadə edirlər.

Layihənin Bakı ofisi hesabat dövrü ərzində Dünya Bankı, ATƏT-in Bakı ofisi, BMT, BP şirkəti və digər şirkət və təşkilatların tədbirlərində iştirak etmiş və onların hesabatları ilə tanış olmuşdur. Bakı ofisinin əməkdaşları həmçinin Təhsil Nazirliyində fəaliyyət göstərən anti-korrupsiya işçi qrupun iclasında iştirak etmiş, habelə Ədliyyə Nazirliyi və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının notariat kontorları işçilərinin qəbulu ilə bağlı keçirilən yazılı imtahanlarda müşahidəçi kimi çıxış etmişlər.

Cari ilin Dekabrın 3 və 4-də Layihənin Gəncə ofisinin əməkdaşları Helsinki Vətəndaş Assambleyasının Beynəlxalq İnsan Hüquqları günü ilə bağlı təşkil etdiyi tədbirdə iştirak etmişlər. Qarşı Mübarizə üzrə Milli Strategiya ətrafında müzakirələrdə iştirak etmişlər. Tədbir zamanı Gəncəbasar zonasında insan hüquqları ilə bağlı vəziyyət müzakirə edilmişdir.

Cari ilin Dekabrın 24 və 25-də Layihənin Lənkəran ofisinin əməkdaşları Ombudsman Aparatının cənub zonasında fəaliyyət göstərən bələdiyyə, QHT-lər və mətbuat üçün təşkil etdikləri tədbirdə iştirak etmişlər. Tədbirdə regionda insan hüquqlarının qorunması ilə bağlı vəziyyət ətrafında fikir mübadiləsi aparılmışdır.



*Lənkəranda keçirilən görüş*

Cari ilin Dekabrın 12-də Layihənin Quba ofisinin əməkdaşları ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin həyata keçirdiyi Parlament Proqramı çərçivəsində Qubada Millət vəkillərinin köməkçiləri üçün təşkil olunmuş dəyirmi masa müzakirəsində iştirak etmişlər. Tədbir zamanı, iştirakçılara "Şəffaflıq Azərbaycan" təşkilatının missiya və xidmətləri barədə məlumatlar görüş iştirakçılarının nəzərinə çatdırılmışdır.



*Qubada keçirilən dəyirmi masa*

## 4. MÜRACIƏTLƏRIN ÜMUMI STATISTIKASI

Layihə, qeyd olunan hesabat dövrü ərzində 5 mərkəz daxil olmaqla 2089 ilkin zəng və şikayət qəbul edib: Bakı (292), Gəncə (494), Lənkəran (374), Quba (599) və Şəki (330).

*Aşağıda göstərilən diaqram hər beş mərkəz üzrə qəbul olunan şikayətlərin rəqəmlə ifadə olunması göstərilir.*




## Şikayətçilərin cinsi

Şikayətçilərin cinsi nisbəti ilə götürsək, kişilər qadınlara nisbətən daha çox şikayət ilə mərkəzlərə müraciət edirlər. Bu hal özünü daha çox kənd yerlərində biruzə verir. Buna əsas verən amillərdən biri isə görüşlərin çayxana və ya ofis daxilində keçirilməsidir. Şəki və Gəncə şəhərlərində qadınların iştirak faizi daha yüksəkdir. Bununla belə, Lənkəran və Qubada məktəblərdə təşkil olunan tədbirlərdə də qadınların çoxluq təşkil etmələri müşahidə olunurdu.

*Aşağıda göstərilən diaqramda hər beş mərkəzə hesabat dövrü ərzində, habelə Layihənin həyata keçirilmə dövründən bəri müraciət edən şikayətçilərin cinsi nisbətini göstərilib:*

| **Şikayətçilərin cinsi** | | **Bakı XI rüb** | **Gəncə XI rüb** | **Lənkəran XI rüb** | **Quba XI rüb** | **Şəki XI rüb** |
|---|---|---|---|---|---|---|
| A | Kişi | 190 | 305 | 299 | 465 | 226 |
| B | Qadın | 102 | 189 | 75 | 134 | 104 |
| C | Şikayətlərin ümumi sayı | 292 | 494 | 374 | 599 | 330 |

## Şikayətçilərin yaşı

Hər yerdə olduğu kimi, ən aktiv yaş qrupu orta yaşlı əhali hesab edilir. Bununla belə, digər qrupların xüsusi cəhdləri nəticəsində cavan nəsil də yaxşı təmsil olunma imkanından bəhrələnir. Gənclər bu sırada çox passiv görünürlər.

| Yaş qrupu | | Bakı XI rüb | Gəncə XI rüb | Lənkəran XI rüb | Quba XI rüb | Şəki XI rüb |
|---|---|---|---|---|---|---|
| A | < 20 | 6 | 9 | 10 | 99 | 20 |
| B | 20 – 35 | 67 | 52 | 40 | 188 | 72 |
| C | 35 – 50 | 135 | 152 | 247 | 144 | 132 |
| D | 50 – 65 | 58 | 173 | 45 | 86 | 49 |
| E | 65 + | 9 | 78 | 11 | 33 | 28 |
| F | Müəyyən deyil | 17 | 30 | 21 | 49 | 29 |
| **G** | **Ümumi say** | **292** | **494** | **374** | **599** | **330** |

## Şikayətçilərin coğrafi yerləşməsi

Layihənin ilkin həyata keçirilmə mərhələlərində hüquqi yardım əsasən şəhər əhalisinə edilirdisə, son rüb dövründə regional mərkəzlər kənd yerlərində mobil təlimlər keçirmək yolu ilə daha çox kənd əhalisinin ehtiyacları ilə məşğul olublar.

## Şikayətlər ilkin olaraq necə qəbul olunur

Vətəndaşların telefon vasitəsilə əvvəlcədən görüş təyin etməkdən çox sadəcə gəlməyə üstünlük vermək tendensiyası azalmaqdadır. Telefon zəngi və Layihə ofisinə gəlmə ən geniş yayılmış metoddur. Bir çox hallarda regional mərkəz əməkdaşları özləri ayrı-ayrı kəndlərə səfər edir və mövcud olan problemlərlə yerində tanış olurlar.

## Şikayətlərin ünvanlandığı sahələr

Hər bir mərkəzdə eyni olaraq, məhkəmə sistemi şikayətlərin ən çox ünvanlandığı sahədir. Digər sahələrə isə icra orqanları, polis, pensiya fondu və bələdiyyələrə aiddir:




| Sahələr üzrə | | Bakı XI rüb | Gəncə XI rüb | Lənkəran XI rüb | Quba XI rüb | Şəki XI rüb |
|---|---|---|---|---|---|---|
| A | Məhkəmə | 43 | 80 | 26 | 93 | 55 |
| B | Səhiyyə | 3 | 21 | 10 | 3 | 8 |
| C | Təhsil | 10 | 37 | 8 | 8 | 7 |
| D | Gömrük | 0 | 2 | 2 | 3 | 1 |
| E | Vergi/Maliyyə | 0 | 0 | 3 | 0 | 4 |
| F | Polis | 41 | 54 | 13 | 33 | 28 |
| G | Lizensiyalar (tikinti və s.) | 0 | 0 | 3 | 0 | 5 |
| H | Alqi-satqı | 0 | 49 | 0 | 0 | 0 |
| I | Özəlləşdirmə | 11 | 3 | 29 | 32 | 4 |
| K | Inspeksiya | 0 | 0 | 0 | 0 | 0 |
| L | İcra orqanları | 25 | 40 | 65 | 2 | 6 |
| M | Pensiya | 46 | 35 | 14 | 41 | 37 |
| N | Əmək mübahisəsi | 16 | 16 | 4 | 2 | 13 |
| O | Bələdiyyə | 45 | 60 | 53 | 29 | 12 |
| P | Prokurorluq | 46 | 0 | 3 | 3 | 4 |
| Q | Özəl sektor | 4 | 0 | 2 | 5 | 8 |
| R | Hərbi Kommisarlıq | 2 | 10 | 7 | 5 | 9 |
| S | Digər | 0 | 87 | 131 | 165 | 125 |
| T | Müəyyən deyil | 0 | 0 | 1 | 175 | 4 |
| U | Müxtəlif sahələr üzrə ünvanlanan çikayətlərin ümumi sayı | **292** | **494** | **374** | **599** | **330** |

## 5. UĞURLA HƏLL EDILMIŞ BƏZI MÜRACIƏTLƏR

### Bakı üzrə

1. **B2550/729 Məhkəmə qərarı icra prosesindədir**. Binəqədi rayon məhkəməsi şikayətçinin xeyrinə qərar qəbul edərək, Binəqədi rayon İcra Hakimiyyətini şikayətçinin ailəsini mənzil ilə təmin etməyi tapşırmışdır. Layihəmiz prosesin ilkin mərhələsini həyata keçirtdi – Ədliyyə Nazirliyi təqsirkar şəxsləri cəzalandırdı və İcra hakimiyyətinin əməkdaşlarına qarşı məhkəmə qərarının yerinə yetirilməməsinə görə məhkəmə işinə başladı.
2. **B2755/809 Yaşayış binasının bərpasına start verildi.** Son 20 ildə Dövlət Neft Şirkətinin nəznində olan yaşayış binasının vəziyyəti acınacaqlı idi. Layihəmizin işə müdaxiləsindən sonra, Dövlət Neft Şirkəti binada təmir işlərinə başladı və binada yaşayanlar müvəqqəti olaraq başqa yerlərə yerləşdirildi. Vətəndaşların müvəqqəti yaşayış yerlərindəki ödədikləri icarə haqqının ödənilməsi də təmin edilmişdir.
3. **B2860/836 Qeyri-qanuni ittiham dayandırıldı.** Fövqəladə Hallar Nazirliyi vətəndaşı özəl tikinti zamanı təhlükəsizlik qaydalarından istifadə etmədiyinə görə ona qarşı iş qaldırdı. Layihəmizin işə müdaxiləsindən sonra işin icraatı dayandırıldı.
4. **B2745/807 İş yerində hədə-qorxuya son qoyuldu.** Tədqiqatçı və həkim olan vətəndaş rəhbərliyinin onun işdən azad olunması üçün ona hədə-qorxu gəldiyindən şikayətlənirdi. Layihəmizin işə qarışmasından sonra Səhiyyə Nazirliyi tərəfindən vətəndaşın probleminin həll edilməsinə təminat verildi.
5. **B 2602/749 İttiham icra edildi.** Vətəndaş, Xətai rayon Prokurorluğunun və rayon Polis İdarəsinin cinayətin üstünün bağlaması və ittihamın icra etməməsi ilə bağlı şikayət etmişdir. Layihəmizin məsələyə müdaxiləsindən sonra təqsirkar şəxslər polisin axtarışa olan şəxslər siyahısına əlavə edildilər.
6. **B2846/829 Polis əməkdaşı cəzalandırıldı.** Polis əməkdaşı şikayəti qəbul etməkdən imtina etdi və yanlış sənədləri imzalayaraq vətəndaşı aldatdı. Layihəmizin işə müdaxiləsindən sonra yoxlanış aparıldı və polis əməkdaşı cəzalandırıldı.

### Gəncə üzrə

1. **G 1478/1167 Vəzifədə irəliləmə təmin edildi.** AzərAluminyum şirkətinin əməkdaşı həmin şirkətdə mühəndis vəzifəsində işləmək üçün müraciət etdi. Lakin bunun müqabilində, ondan rüşvət tələb edildi. Layihəmizin Əmək inspeksiyasına etdiyi müraciətdən sonra əməkdaş mühəndis vəzifəsinə yüksəldi.
2. **G 2415/2007 Sürücülük vəsiqəsi qaytarıldı.** Vətəndaş şikayət edirdi ki, polis texniki baxış zamanı onun sürücülük vəsiqəsini əlindən almış və sənədlərin qaytarılması üçün ondan 800 ABŞ dolları məbləğində rüşvət tələb etmişdir. Vətəndaş 500 ABŞ dolları vermiş, lakin sənədlərini geri almamışdır. Layihəmizin işə müdaxiləsindən sonra 500 ABŞ dolları məbləği və sənədlər vətəndaşa qaytarılmışdır.
3. **G 2758/2229 Müəllimin dərs saatları təyin edildi.** Müəllim şikayət edirdi ki, məktəb direktoru dərs saatlarını təyin etmək üçün rüşvət yığırdı. Layihəmizin işə müdaxiləsindən sonra məktəb direktoruna xəbərdarlıq edildi və müəllim öz dərslərinə təyin edildi.

4. **G2165/1946 Məhkəmə vətəndaşın şikayətini qeydiyyata aldı.** Vətəndaş şikayət edirdi ki, Nizami məhkəməsi onun şikayətini qeydiyyata almaqdan imtina edir. Layihəmizin məsələyə müdaxiləsindən sonra şikayət qeydiyyata alındı.

**Lənkəran üzrə**

1. **L804/191 Pulsuz tibbi yardım göstərildi.** Vətəndaş şikayət edirdi ki, Lənkəran Tibb Mərkəzində ondan rüşvət tələb edilirdi. Layihəmizin məsələyə müdaxiləsindən sonra vətəndaş pulsuz olaraq tibbi müalicə aldı.
2. **L929/203 Fermer kompensasiya aldı.** Masallıdan olan fermer şikayət edirdi ki, o Kənd Təsərrüfatı Nazirliyindən yanacağa görə kompensasiya almır. Layihəmizin məsələyə müdaxiləsindən sonra məsələ öz həllini tapdı.

**Quba üzrə**

1. **Q 1453/97 Ünvanlı sosial yardımın verilməsi təmin edildi.** Vətəndaş şikayət edirdi ki, ona heç bir səbəb gətirilmədən ünvanlı sosial yardım verilmirdi. Layihənin işə müdaxiləsi şikayətçinin hüququnu bərpa etdi.

2. **Q1572/99 Poçtun çatdırılması haqqında məlumat alındı.** Vətəndaş şikayət edirdi ki, poçt onun məktubunun Strasburqdakı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə çatıb çatmaması ilə bağlı məlumat vermir. Layihəmizin işə müdaxiləsindən sonra məsələ öz həllini tapdı.

3. **1722/101; 1800/103; 1906/109 Üç məhkəmə qərarı qəbul edildi.** Üç nəfər vətəndaş şikayət edirdi ki, Sumqayıt və Xaçmaz Appelyasiya Məhkəmələri, habelə Yasamal məhkəməsi qərar verməkdən imtina edirlər. Layihəmizin işə müdaxiləsindən sonra məsələ öz həllini tapdı.

**Şəki üzrə**

1. **Sh 703/50 Torpaq sənədləri verildi.** Vətəndaşa, keçmişdə torpaqların bölüşdürülməsi zamanı səhvlərin olduğu səbəbi gətirilərək Torpaq və Xəritəçəkmə Komitəsindən torpaq sənədləri verilmirdi. Layihəmizin işə müdaxiləsindən sonra məsələ öz həllini tapdı.
2. **Sh 592/48 Şəxsiyyət vəsiqəsi verildi.** Vətəndaş şikayət edirdi ki, polis rüşvət almadan şəxsiyyət vəsiqəsini verməkdən imtina edir. Layihəmizin işə müdaxiləsindən sonra vətəndaş dövlət rüsumuna əsasən öz şəxsiyyət vəsiqəsini aldı.
3. **Sh 704/51 Mülkiyyət hüququ notariat tərəfindən təsdiq edildi.** Vətəndaşa qanunla nəzərdə tutulan vaxt keçdiyindən mülkiyyət hüquqlarının təsdiq edilməsi notariat tərəfindən imtina edilirdi. Layihəmizin işə müdaxiləsindən sonra müddət Ədliyyə Nazirliyi tərəfindən uzadıldı.
4. **842/57 Məhkəmənin tərkibi təsdiq edildi.** Appelyasiya məhkəməsi heç bir səbəb gətirmədən yeni məhkəmə tərkibi qurmaqdan imtina etdi. Layihəmizin işə müdaxiləsindən sonra məsələ öz həllini tapdı.